# Xocavənd kəndində görülmüş işlərlə tanışlıq

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva fevralın 25-də Xocavənd rayonunun Xocavənd kəndində görülmüş işlərlə tanış olublar.**









AZƏRTAC xəbər verir ki, Ağdam, Füzuli və Xocavənd rayonlarında Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma kənddə həyata keçirilmiş sosial layihələr barədə məlumat verdi.

Bildirildi ki, Xocavənd rayonunun eyniadlı inzibati ərazi dairəsinə daxil olan bu kənd 2023-cü ilin sentyabrında Silahlı Qüvvələrimizin antiterror əməliyyatı nəticəsində işğaldan azad edilib.

Burada ümumilikdə 278 fərdi ev var. Onlardan 128-i yararsız, 150-si isə qismən yararlıdır. Qismən yararlı evlərin 20-si artıq təmir olunub, bu il daha 130 evdə təmir işləri aparılacaq.

Bu ilin fevralında Xocavənd kəndinə 20 ailə - 94 nəfər qayıdıb. Cari ilin mart-dekabr aylarında kəndə daha 130 ailə - 533 nəfərin qayıtması planlaşdırılır.

Ötən müddət ərzində kənddə bir sıra sosialyönümlü işlər görülüb. Belə ki, 5 kilometr uzunluğunda daşıyıcı qaz xətti çəkilib, 1500 metr uzunluğunda mövcud xətt bərpa edilib. Bundan başqa, 2100 metr uzunluğunda 0,4 kV-luq mövcud xətlər və 2 transformator məntəqəsi bərpa olunub.

Kənddaxili yollar asfaltlanıb, piyada yolları çəkilib. Hazırda bu istiqamətdə işlər davam etdirilir.

Görülmüş işlərlə tanışlıqdan sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva kəndə köçmüş sakin Rizvan İbrahimovun evində oldular və söhbət etdilər.

**Prezident İlham ƏLİYEV:** Salam-aleyküm.

**Qadın sakin:** Salam, xoş gəlmisiniz.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Xoş gördük.

**Digər qadın sakin:** Xoş gəlmisiniz.

**Prezident İlham ƏLİYEV:** Salam.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Xoş gördük, salam, gözəl.

**Prezident İlham ƏLİYEV:** Necə yerləşmisiniz?

**Kişi sakin:** Çox əla, hər şey əladır. Allah sizdən razı olsun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Qadın sakin:** Keçin içəri.

**Prezident İlham ƏLİYEV:** Ev şəraiti necədir?

**Kişi sakin:** Çox əladır, hər şey əladır.

**Prezident İlham ƏLİYEV:** Yaxşı, razısınızmı?

**Kişi sakin:** Allah sizdən razı olsun. Allah sizi qorusun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, təbrik edirəm sizi, doğma Vətənə qayıtmaq münasibətilə.

**Kişi sakin:** Çox sağ olun, Allah Sizi var eləsin.

**Prezident İlham ƏLİYEV:** Siz özünüz buralısınız?

**Kişi sakin:** Bəli.

**Prezident İlham ƏLİYEV:** Bu kənddə yaşamısınız?

**Kişi sakin:** Bəli. O vaxt rəhmətlik Ulu Öndər də gəlmişdi buraya.

**Prezident İlham ƏLİYEV:** Bu kəndə gəlmişdi?

**Kişi sakin:** Bəli. Səhv etmirəmsə, 1979-cu ildə.

**Prezident İlham ƏLİYEV:** İşğal dövründə harada yaşamısınız?

**Kişi sakin:** Bakıda.

**Prezident İlham ƏLİYEV:** Şərait necə idi?

**Kişi sakin:** Belə də, şükür. Amma burada olsaydıq, daha yaxşı olardı.

**Prezident İlham ƏLİYEV:** İndi 35 ildən sonra buradasınız. Sizi neçənci ildə buradan çıxardıblar, 1991-də?

**Kişi sakin:** Vertolyot partlayan gün, həmin gün bizi çıxartmışdılar. Sonra vertolyotla gələndə onları da şəhid etdilər.

**Prezident İlham ƏLİYEV:** Buraya yaxınlıqda idi?

**Kişi sakin:** Bəli, Qarakənddə idi.

**Prezident İlham ƏLİYEV:** Buradan oraya məsafə nə qədərdir?

**Kişi sakin:** 17 kilometrdir.

**Prezident İlham ƏLİYEV:** Təbrik edirəm sizi. Xoşbəxt yaşayın doğma Qarabağ torpağında, doğma kəndinizdə.

**Qadın sakin:** Çox sağ olun, minnətdarıq.

**Kişi sakin:** Çox sağ olun, hamısı Sizin sayənizdə. Allah Sizi var eləsin. Allah şəhidlərimizə rəhmət eləsin.

**Qadın sakin:** Çox sevinirik, sevincimizin həddi-hüdudu yoxdur.

**Kişi sakin:** Siz bizə dünyanı bəxş etmisiniz, Quran haqqı. Nə deyiriksə, ürəkdən deyirik, elə-belə yox. Siz bizə yeni həyat vermisiniz.

**Qadın sakin:** Sizin, Mehriban xanımın bizim ailənin qonağı olmağınız bizim sevincimizi ikiqat artırıb. Bu qayğıya görə Sizə minnətdarıq, çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, siz buna layiqsiniz. Uzun illər köçkün həyatı yaşamısınız əzab-əziyyət içində. Artıq o dövr tarixdə qaldı.

**Kişi sakin:** Allah köməyiniz olsun, Allah Sizi var eləsin.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Gəlin, birlikdə şəkil çəkdirək.

**Prezident İlham ƏLİYEV:** Bəli, gedək. Burada maldarlıq üçün yaxşı şərait var. Su necə?

**Kişi sakin:** Var, buranın hər yeri münbitdir. Allah Sizdən razı olsun.

**Prezident İlham ƏLİYEV:** Həyətyanı sahə də var?

**Kişi sakin:** Var, 15 sot torpaq var.

**Prezident İlham ƏLİYEV:** Torpaq yəqin ki, ayrılacaq.

**Kişi (rəsmi şəxs):** Həyətyanı sahə 20 sotdan çoxdur.

**Prezident İlham ƏLİYEV:** Mal-qaran da var, yoxsa yox?

**Kişi sakin:** İnşallah, olacaq.

**Prezident İlham ƏLİYEV:** Əlbəttə, olmalıdır.

**Kişi (rəsmi şəxs):** Burada heyvandarlıq kompleksləri, fermalar var.

**Prezident İlham ƏLİYEV:** Yəni dolanışıq burada yaxşı olacaq.

**Qadın sakin:** İnşallah.

**Prezident İlham ƏLİYEV:** Artıq sizdən asılıdır, dövlət nə lazımdırsa edib.

**Kişi sakin:** Əlbəttə, Allah dövlətimizi qorusun, Sizi qorusun, ailənizi qorusun, nəvələrinizi qorusun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, cansağlığı arzulayıram. Xoşbəxt yaşayın.

Azərbaycan.- 2026.- 26 fevral (№ 37).- S.2.